

DAMƏT SALMANOĞLU

## PAYIZ

Payız sərt gələndə küləklər əsər,
Ağaclar deyinər, küləkdən küsər.
Yarpaqlar saralıb budaqdan düşər,
Hər tərəf qızılı rəngə boyanar.

Quşların yuvasın dağıdar külək,
Bəzisi köç edib qaçar payızdan.
Payızın rənginə boyanar təhəng,
Boyasın, fırçasın alar payızdan.

Sərçələr islanıb qaçıb gizlənər,
Civ-civi səsindən qulaq tutular.
Payızın yağışı sel təki gələr,
Hər tərəf islanıb təmiz yuyular.

## KÖNÜL SARAYIMA SAHİB OLAN QIZ

Elə oğrun-oğrun baxma, əzizim,
Yandlrıb kül edir o baxış, o göz.
Könlümün sultanı sən ol, əzizim,
Könül sarayıma sahib olan qız.

Seçmişəm tək səni qızlar içində,
Belə gözəllikdə, belə biçimdə.
Tək səni istəyir könlüm içində,
Könül sarayıma sahib olan qız.

Gəl, tut əllərimdən birlikdə gedək,
Sevinci, kədəri bir yerdə bölək.
Yaşayaq bir ömür sevib-sevilək,
Könül sarayıma sahib olan qız.

İlahi göndərən tək sevgi payım,
Gəl, dinlə qəlbimdə sevgi harayın.
Sevginlə gəl, isit bu eşq sarayın,
Könül sarayıma sahib olan qız.

## QOY AZAD YAŞASIN, YAŞASIN İNSAN

Gəl gedək, əzizim, uzaq bir yerə,
bir yaşıl adaya, heç kim olmasın.
Qaçaq bu dünyanın qeylü-qalından,
Orda tək biz olaq, kimsə olmasın.

Hər tərəf dənizlə əhatə olsun,
Yaşıl meşəsində bir koma quraq.
Komada sevginin istisi olsun,
Səhərlər quşların səsinə duraq.

Bax, belə yaşayaq bir ömür boyu,
O yaşıl adada xoşbəxt firavan.
Hər insan bir dəfə dünyaya gəlir,
Qoy azad yaşasın, yaşasın insan.

## SƏNLİ GÜNƏ GÜN ÇATMAZ

Saçlarında nəfəsimin izi var,
Gül ətirli, qönçə gülum, gözəl yar.
Bir yaxın gəl, gözlərində gözüm var,
Sənlə keçən gözəl günə gün çatmaz.

Xatirələr qalıb artıq keçmişdə,
Yeni günə, sənli günə gün çatmaz.
Gəl, yaşayaq galan ömrü birlikdə,
Sənlə keçən sənli günə gün çatmaz.

Lalə yanaq, püstə dodaq, naz gülüm,
Darıxanda səslə məni tez gəlim.
İncə belə qoy dolansın öz qolum.
Sənli ana, sənli günə gün çatmaz.

## SÖZÜNƏ, ƏHDİNƏ SADİQ QALANIM

Ömrümə gəlmisən payız mehi tək,
Ruhuma can verib əzizləmisən.
Ülvi məhəbbətin toxumun səpib
Qəlbimi qəlbinə möhürləmisən.

Həyatım səninlə elə xoş keçir,
Ağrımı, acımı unutdurmusan.
Hər anım, saniyəm tək səni seçir,
O andan qəlbimdə yuva qurmusan.

Damətəm, sevgindən ilham alıram,
Qoyma ləkə düşə bu məhəbbətə.
Sözünə, əhdinə sadiq qalanım,
Qoyma, kölgə düşə bu səadətə.

## GÖZƏLDİR

Sən yaşıl gözlüsən, yaqut yanaqlı,
Elə bil cənnətdə cənnət hurisi.
Gəl, baxım can alan ala gözünə,
Mən cənnət sakini, sən ol hurisi.

Deyirlər cənnətdə hurilər yalnız,
Seçilən insanın gözünə baxar.
Qoymazlar heç zaman o qalsın yalqız,
İtaət eyləyib sözünə baxar.

Dünyamı cənnətə döndərən mələk,
Səninlə yaşamaq elə gözəldir.
Yaşayıb həzz alaq, sevinsin ürək,
Hurim ol dünyada, dünya gözəldir.

## ELƏ BİL SƏDD ÇƏKİB BÖYÜK YARADAN

Allahın əsəri
göz önündədi,
qarışmaz suları
iki dənizin.
Atlantik okeanı
böyük, nəhəngdi,
Sakit okeanın
suyu şəffafdı.
İki okeanın
qovuşduğu an
bir-birinə toxunar,
amma qarışmaz,
elə bil sədd çəkib
böyük yaradan.
Allahın əmrinə
asi də olmaz.
Bu böyük möcüzə
ibrətddir bizə.
Allahın əmrində
bütün kainat
böyüyü, kiçiyi,
lap zərrəciyi.
İslamiyət yaranan gündən,
"Quran"da,
bəhs edib bu möcüzədən.
İnansın insanlar
islam dininə.
Dəvət edib insanları islamiyətə
Məhəmməd səllləlahu əleyhiəssəlam,
Allahın elçisi, son peyğəmbəri,
O dahi insan.
İyirminci əsrin axırlarında,
bu iki okeanın, tən ortasında
kəşf edib bu həqiqəti
fransız səyyah,
Elə ki rast gəlib
bu möcüzəyə,
qəlbinə səpilib islamın ətri.
Xristian olsa da Qusto,
səcdə edib,
uca tanrıya
"lailahəilləllah" deyib
islama gəlib.
İslam dinini -
haqq dinin seçib.
Allahın təkliyinə
“şəhadət” verib.

## KÜR-ARAZ QOVŞAĞI

Arazım, Xan Arazım
qan damarım,
Araz çayım...
qaynar bulaqların
sərin ceşmənin,
Anadolu elinin
göz yaşlarısan.
Başına bəlalar

açıb kafirlər,
o tayın, bu tayın
dillərdə əzbər.
Hərdən səni də
çox qınayıram.
Vətəni bölmüsən
iki hissəyə,
birinə güneyli,
birininə quzeyli
adları verib,
Arazın o tayı,
bu tayı deyib.
Azəri elinin şah damarısan.
Ayrılıq anından
lil qan axırsan.
Qəlblər ağlayır,
gözlər ağlayır...
Qardaşın bacısı
o tayda qalıb,
bacının anası bu tayda qalıb,
bizi kim bu günə,
bu günə salıb?
Ayrılıq həsrətindən
qəlblər dağlanıb.
Kür Arazla govuşub
qucaqlaşırlar...
Yol alıb
doğma dənizə axır,
sakit-sakit pıçıldaşırlar
başlarına açılan
min bir oyundan,
qəmgin-qəmgin
hey danışırlar...
Kür Araz qovşağı
ayrı mənzərə.
Qarışıb suları
axır Xəzərə.

## *ZƏFƏR SƏNİNLƏ*

Türk dünyasının
böyük evladı,
İndiki zamanın
zaman dühası.
O qorxmaz sərkərdə,
Qəlbində Mehdi sevdası,
haqqın gur səsi,
o böyük insan.
Qələbə onunla
qoy duysun cahan,
Adı dillər əzbəri,
Rəcəb Tayyib Ərdoğan.
Qarşısında
əyilər, kiçilər
min bir hiyləgər,
Sözünün kəsəri poladı əyər.
Qələbə səninlə
böyük bəxtəvər,
İlahi bəxş edər
hər yerdə zəfər.
Qələbə səninlə
qoy duysun cahan,
Adın dillər əzbəri,
Rəcəb Tayyib Ərdoğan.
İslamın bayrağı sənə əmanət,
Yüz ildir əzilir
hər yerdə millət,
göstər hünərini,
ey dahi igid,
Yox olsun cəhalət
yox olsun zillət.
Məzlumun gözündən sil göz yaşını,
ey böyük insan.
Qələbə səninlə
qoy duysun cahan,
Adın dillər əzbəri,
Rəcəb Tayyib Ərdoğan.

## *ƏZİZİM...*

Əzizim...
Gəl, deyim sənə
dünya necə dünyadır,
yaşı bilinməyən
qoca dünyadır...
ələyində ələyib
milyon illəri,
Fironu, Nəmrudu
taxtından salıb
Necə imperiyanı
o zəlil edib,
əzib başlarını
taxt-tacı gedib.
Əzizim...
bu dünya
hərdənbir yumşalıb,
lap həlim olur,
yetim sifətində
dilənçi olur.
Çaşıb inanarsan
inanma ona,
dünyadır girən,
min bir cür dona.
Əzizim...
dünyadan
biz zövq alırıq,
Onun gözəlliyinə
heyran oluruq.
Dünya vəfalı olanda bizə
tériflər söyləyib
alqış deyirik.
Tərs şillə çəkəndə
dünya da bizə
onun ünvanına
qarğış deyirik.
Əzizim...
dünya,
qalan dünyadır,
hər kəsin zamanı
axır zamandır.
Hələ neçə milyon il davam edəcək,
yalnız...
onu bilər
qəlblər hakimi,
tək olan, var olan
zaman hakimi
sahib zamandır.